**“Təsdiq edirəm”**
**İAETİ-nin direktoru**
**_________ prof. Y.H.Həsənli**
**“____” _______ 20    il**

**“Klasterial inkişaf və innovasiya” şöbəsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Şöbə Azərbaycan Dövlət İqtisad Universiteti nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun struktur bölməsidir, Universitetin rektoruna və İnstitutun rəhbərliyinə tabedir.

1.2. Şöbə öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericilik və normativ sənədlərini, Universitetin daxili qaydalarını, rəhbərliyin əmr və sərəncamlarını və Elmi Şuranın qərarlarını rəhbər tutaraq, institutun iş planları və rəhbərliyin tapşırıqları əsasında həyata keçirir.

1.3. Şöbə öz fəaliyyəti haqqında Universitetin və institutun rəhbərliyi qarşısında hesabatlıdır.

## 2. Şöbənin vəzifələri

Şöbənin vəzifələrinə aşağıdakılar aiddir:

Elmi-tədqiqat işlərinin təsdiq olunmuş plana uyğun vaxtında və tələb olunan səviyyədə yerinə yetirilməsi;

Klasterial inkişaf və innovasiya sahələrində aparılacaq elmi araşdırmaların respublikada və digər təşkilatlar tərəfindən aparılan elmi-tədqiqat işləri ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi;

Şöbənin elmi fəaliyyəti nəticələrinin hesabat, məruzə, arayış formasında ümumiləşdirilərək, universitetin və institutun rəhbərliyinə təqdim olunması;

Şöbənin fəaliyyəti barəsində institutun rəhbərliyinə hər kvartalın sonunda və illik olaraq hesabatın verilməsi və növbəti il üçün iş planının təqdim edilməsi.

## 3. Şöbənin fəaliyyət iqtiqamətləri

Klasterial inkişaf və innovasiya sahəsində informasiya bazasının formalaşdırılması;

Ölkədə Milli İnnovasiya Sisteminin formalaşması və inkişafı, innovasiya infrastrukturunun qurulması və innovasiya siyasətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi istiqamətində araşdırmaların aparılması;

Klasterial inkişaf və innovasiya sahələrində mövcud problemlərin elmi-nəzəri cəhətdən əsaslandırılması, onların həlli imkanlarının araşdırılması və mövcud problemlərin aradan qaldırılması istiqamətlərinin işlənməsi;

Klasterial inkişafın hüquqi əsaslarının yaradılması və inkişaf etdirilməsi, habelə sənaye, xidmət və kənd təsərrüfatı sahələrində klasterial inkişafın təmin edilməsi sahəsində tədqiqatların aparılması;

Ölkənin iqtisadi, sosial və intellektual potensialının möhkəmləndirilməsi, informasiya, biliklərə əsaslanan, rəqabətə davamlı iqtisadiyyatın qurulması, informasiya və bilik bazarının yaradılması və inkişaf etdirilməsi sahəsində mövcud problemlərin təhlili;

Ölkənin müxtəlif sahələrində klasterial inkişafın təmin edilməsi məqsədilə inkişaf etmiş informasiya və kommunikasiya infrastrukturunun yaradılması, vahid milli elektron informasiya məkanının formalaşdırılması, informasiya və kommunikasiya xidmətlərinin genişləndirilməsi, habelə ölkənin informasiya təhlükəsizliyinin təmin olunması, ümumdünya elektron informasiya məkanına inteqrasiyanın genişləndirilməsi və ölkənin rəqəmsal geriliyinin aradan qaldırılması istiqamətində təklif və tövsiyələrin hazırlanması;

İqtisadi inkişafın biliklərə əsaslanan iqtisadiyyat üzrə qurulması və bilikləryönlü iqtisadi inkişafın təmin edilməsi istiqamətində mövcud problemlərin tədqiqi;

İnnovasiya siyasətinin maliyyələşdirilməsi mexanizmlərinin qiymətləndirilməsi və onların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədqiqatların aparılması.

## 4. İşçilərin vəzifələri

### Şöbə müdiri

**Əmək funksiyası**: Elmi müəssisənin nizamnaməsinə uyğun olaraq, şöbənin təyinatı üzrə nəzərdə tutulan elmi-analitik tədqiqatların yerinə yetirilməsini təşkil edir və ona nəzarət edir. Şöbənin profilinə uyğun olaraq, strateji elmi problemləri, prioritet mövzuları, şöbənin fəaliyyətinin inkişaf perspektivlərini müəyyənləşdirir. Şöbə qarşısında duran elmi tədqiqat vəzifələrinin optimal həlli yollarını və metodlarını seçir. Şöbənin cari illik və perspektiv tədqiqat planlarını hazırlayır və rəhbərliyə təqdim edir. Aktual elmi problemlərin həlli üçün təşəbbüs göstərilməsini və metodiki materialların hazırlanmasını həyata keçirir. Şöbənin planında nəzərdə tutulan işlərin icrasına nəzarət edir, mühüm işlərin aparılmasında bilavasitə iştirak edir. Şöbə əməkdaşlarının plan tapşırıqlarını, müqavilə öhdəliklərini yerinə yetirməsinə, işlərin keyfiyyətinə nəzarət edir. Şöbədə yerinə yetirilən işlər haqqında hesabat tərtib edir və rəhbərliyə təqdim edir. Əməkdaşların fəaliyyəti üçün zəruri avadanlıqlara, materiallara olan və başqa ehtiyacları müəyyən edir. Şöbəyə alınan avadanlıq və materialların səmərəli istifadəsi və onların mühafizəsi üçün zəruri tədbirlər görür. Şöbə əməkdaşlarının yaradıcılıq fəallığının və təşəbbüskarlığının yüksək səviyyədə olması üçün tədbirlər görür. İşlərin icrasında əmək təhlükəsizliyi və mühafizəsinin norma və qaydalarına riayət olunmasını təşkil edir. Kadrların seçilməsində iştirak edir, onların attestasiyası və fəaliyyətinin qiymətləndirilməsi, ixtisaslarının artırılması üçün səmərəli təkliflər verir. Şöbənin işinin ümumi nəticələrində fərdi qabiliyyət və keyfiyyətləri nəzərə alaraq, işçilərin mükafatlandırılması, həvəsləndirilməsi, əməyinin qiymətləndirilməsi barədə təkliflər verir. Şöbənin strukturunun fəaliyyət istiqamətlərini müəyyənləşdirir, onların işini təşkil edir və əlaqələndirir.

**Bilməlidir**: İxtisas üzrə biliyə malik olmaqla, işlədiyi təşkilatın elmi problemlərini, analitik tədqiqat mövzularının prioritet istiqamətlərini, rəhbər orqanların qərar, əmr və sərəncamlarını, normativ hüquqi aktlarını, təşkilatın və şöbənin profili üzrə ölkədə və dünyada əldə edilmiş son nailiyyətləri, elmi tədqiqatın təşkili, planlaşdırılması və proqnoqlaşdırılmasını, maliyyələşdirilməsini, müqavilələrin bağlanması və icrası qaydalarını, əməkdaşların istifadə etdiyi avadanlıq və cihazların istismar qaydalarını, şöbənin fəaliyyətinin idarə olunmasını, elmi işçilərin əməyinin qiymətləndirilməsi və ödənilməsi sistemlərini, onların maddi həvəsləndirmə formalarını, kadrların hazırlanması və ixtisaslarının artırılması üzrə mövcud qaydaları, kargüzarlıq işlərinin təşkili üzrə əsas rəhbər materialları, əmək qanunvericiliyinin əsaslarını, əməyin mühafizəsi və təhlükəsizliyinin norma və qaydalarını.

**Böyük elmi işçi**

**Əmək funksiyası**: Problem və mövzuların tədqiqi zamanı işçilər qrupuna, həmçinin müəyyən mövzuların tədqiqinə elmi rəhbərliyi həyata keçirir, ən aktual mürəkkəb və məsul işlərin işraçısı kimi elmi tədqiqatla məşğul olur. Tədqiqat və işlərin aparılmasının proqnozlarını və metodiki vasitələrini müəyyənləşdirir. Strateji əhəmiyyət kəsb edən elmi məlumatların toplanmasını, analitik təhlilini və öyrənilməsini təşkil edir. Alınan nəticələrin nəzəri ümumiləşdirilməsində, analitik hesabat və məruzələrin tərtib olunmasında iştirak edir. Əməkdaşlarla birgə aparılan elmi tədqiqatların nəticələrinin keyfiyyətinin və düzgünlüyünün yoxlanılmasında iştirak edir. Elmi kadrların ixtisaslarının artırılmasında iştirak edir. Aparılan tədqiqatların nəticələrinin tətbiq və təbliğ olunmasında iştirak edir.

**Bilməlidir**: Aparılan tədqiqatların aktual mövzularını və araşdırılan problemlərin prioritet istiqamətlərini, aidiyyəti məsələlər üzrə ölkədə və xaricdə mövcud olan ən son yenilikləri, elmi tədqiqat işlərinin aparılmasının müasir metodlarını, vasitələrini, elmi proqnozlaşdırmanı, informasiya texnologiyaları ilə işləməyi, əməyin mühafizəsi və təhlükəsizliyinin norma və qaydalarını.

**Elmi işçi**

**Əmək funksiyası**: Elmi tədqiqatların müəyyən sahələri (mərhələsi, tapşırığı) və problem mövzular üzrə məsul icraçı kimi elmi tədqiqat və hazırlıq işləri ilə məşğul olur, yaxud elmi rəhbərlə birlikdə mühüm tədqiqat və təhlil işlərini həyata keçirir. Ölkədə və xaricdə əməkdaşı olduğu təşkilatın təyinatı və elmi işlər planı üzrə əhəmiyyətli hesab edilən son informasiyaların toplanmasını, təhlilini və öyrənilməsini təşkil edir, nəticələri ümumiləşdirmək əsasında analitik arayış və məruzələr hazırlayır, tədqiqat mövzusunun planı və proqnozunun, proqram və layihələrin hazırlanmasında bilavasitə iştirak edir, aldığı nəticələrin təbliği və tətbiqi üçün təklif və tövsiyələr verir, plan üzrə apardığı tədqiqata dair hesabat tərtib edir.

**Bilməlidir**: Aparılan tədqiqat və araşdırmaların məqsəd və vəzifələrini, bu sahədə ölkədə və xaricdə mövcud olan əhəmiyyətli məlumatları, tədqiqat aparılmasının müasir metod və üsullarını, informasiya texnologiyaları ilə işləməyi, məlumatın analitik təhlili və ümumiləşdirilməsini, elmi proqnozlaşdırmanı, əməyin mühafizəsi və təhlükəsizliyinin norma və qaydalarını.